***Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa bürosunun direktoru Hans Klyuge xəbərdarlıq edib ki, hazırda otuz Avropa ölkəsində COVID – 19-a qarşı vaksinasiyanın aparılmasına baxmayaraq, xüsusilə koronavirusun yeni, daha yoluxucu variantlarının meydana gəlməsini nəzərə alaraq, heç bir halda rahatlaşmaq və ayıqlığı itirmək olmaz. O, mövcud durumu müşahidə edərək belə qənaətə gəlib. H.Klyuge hesab edir ki, Avropada paradoksal vəziyyət yaranıb. Bir tərəfdən vaksinlər bizə böyük ümid verir, pandemiyanın tezliklə sona çatacağına ümid yaradır. Digər tərəfdən, virusun yeni stammlarının ortaya çıxması yenidən böyük narahatlıq doğurur, hətta, bir sıra ölkələrdə COVID – 19-un yayılması sürətinin artması bu ölkələrin hakimiyyət orqanlarını sərt məhdudlaşdırıcı tədbirlər görməyə məcbur edib.***

# Virusun yeni, daha yoluxucu variantları qarşısında ayıq olmalıyıq

Avropa bölgəsindəki 35 ölkədə 25 milyondan çox insan artıq peyvənd olunub. Hans Klyugenin sözlərinə görə, vaksinlər öz effektivliyini və təhlükəsizliyini sübut etdi. Lakin bu gün, virusun yüksək sürətlə yayılması və COVID – 19 - un yeni ştammlarının ortaya çıxması ilə, əhalinin ən həssas qruplarını peyvənd etmək zərurəti daha da artıb. Ancaq hələ ki vaksinlərin istehsalı və paylanması ÜST - nın təkid etdiyi ədalətli və bərabər əlçatanlılıq tələblərinə cavab vermir. H.Klyuqe deyib: “Peyvəndin gəlməsi sayəsində insanların “tunelin sonundakı işığı” görməyə başladıqları və eyni zamanda, yeni təhlükə fonunda, məhdudiyyətlərə riayət etməyə çağırıldıqları zaman yaranan bu paradoks, gərginliyə, narahatlığa, yorğunluğa və qarışıqlığa səbəb olur. Belə şəraitdə bu tamamilə başa düşüləndir”.

Ümumdünya Səhiyyə Təşkilatının Avropa bürosunun rəhbərinin sözlərinə görə, bu günə qədər koronavirusun “Britaniya ştammı” deyilən variantının ortaya çıxdığını bölgədəki 33 ölkə, Cənubi Afrikada aşkar edilən variantının isə 16 ölkədə aşkarlandığını bildirib. Üstəlik, yeni variantların yayılması barədə bir neçə xəstəxana, məktəb və qocalar evindən də xəbərlər verilib. Eyni zamanda, məhdudiyyətlər tətbiq edilən ölkələrdə yeni yoluxma hallarının (o cümlədən koronavirusun yeni variantı ilə) sayı azalıb. Son iki həftə ərzində belə azalmalar 30 ölkədə qeydə alınıb.

“Buna baxmayaraq, Avropada koronavirus infeksiyasının yayılması dərəcəsi çox yüksəkdir”, – deyə Hans Klyuge söyləyib və əlavə edib ki, rahatlaşmaq üçün hələ tezdir, səhiyyə və sosial xidmətlər artan yükün öhdəsindən çətinliklə gəlir. Bundan əlavə, COVID – 19 – un bölgədə əhalinin yalnız üçdə birində təsdiqləndiyini nəzərə alsaq, virusun hələ də böyük bir “fəaliyyət sahəsi” olduğunu başa düşmək lazımdır.

ÜST nümayəndəsi deyib ki, gəlin, bizim üçün bu qədər çətin olan məqamları unutmayaq: “İctimai yerləri açmaq və yenidən bağlamaq, karantini tətbiq etmək və onu dərhal ləğv etmək səhv bir strategiyadır. İqtisadiyyatı canlandırmanın və əlavə təsirləri minimuma endirməyin ən yaxşı yolu epidemioloji meyarlara əsaslanaraq məhdudlaşdırıcı tədbirləri tətbiq etmək və onları tədricən ləğv etməkdir”.

Qeyd etmək lazımdır ki, vaksinasiya xeyli vaxt aparacaq və buna görə büro rəhbəri avropalıları səbirli olmağa çağırıb. Deyib ki, virusun yeni, daha yoluxucu variantları qarşısında biz ayıq olmalıyıq: “Biz səbir və mətanət ehtiyatlarımızı tam istifadə etməli, daha yoluxucu virusun hücumuna səbəb ola bilən kollapsdan səhiyyə sistemlərimizi qorumaq üçün zəruri olan tədbirlərə riayət etməliyik”.

Avropa Şurası Parlament Assambleyasının qış sessiyasının üçüncü iş günü dünyada 2 milyondan çox insanın həyatına son qoymuş koronavirus infeksiyası ilə bağlı “COVID – 19 peyvəndi: etik, qanuni və praktiki mülahizələr” adlı məruzənin dinlənilməsi ilə başlayıb. Məruzənin təqdimatından sonra Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Qebreyesus çıxış edib. Baş direktor koronavirusa qarşı peyvənd haqqında məlumat verərək, artıq 5 istehsalçı ölkə tərəfindən 2 milyard peyvəndin istehsal edildiyini diqqətə çatdırıb. O, həmçinin peyvəndin qeyri – bərabər paylanıldığını da qeyd edib. Vurğulayıb ki, bəzi ölkə və şirkətlər peyvəndin qiymətini süni şəkildə artırırlar. T.Qebreyesus, həmçinin logistika və şəffaflıq sahələrində problemlərin olduğunu da deyib. Diqqətə çatdırıb ki, peyvəndin əlçatanlığına maneə yaradan mövcud problemlər aradan qaldırılmasa, COVID – 19 pandemiyasının yaratdığı gərginlik davam edəcək.

Xatırlatmaq yerinə düşər ki, pandemiyanın başlanmasından indiyədək ÜST – nın Avropa bölgəsində koronavirus infeksiyası nəticəsində 700 mindən çox insan həyatını itirib. Amma onu da qeyd etməliyik ki, həyatını itirənlərlə yanaşı, həmçinin virusdan sağalanlarda da uzunmüddətli fəsadlar yaranması müşahidə edilib.

Azərbaycanda da vəziyyət bənzərdir. Ötən müddət ərzində 2 milyon 500 minə yaxın test aparılıb. Hazırkı dövrədək ölkəmizdə 230 mindən çox insanın koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 223 min nəfərə yaxını müalicə olunaraq sağalıb, 3 mindən çox insan vəfat edib. Aktiv xəstə sayı 4 min nəfərə yaxındır. Amma onu xüsusi olaraq qeyd etməliyik ki, son vaxtlar yeni növ koronavirus infeksiyasından sağalan xəstələrdə sonradan müəyyən fəsadlar yaranması halları müşahidə olunur. Aparılan araşdırmalar göstərir ki, əvvəlki illərlə müqayisədə ürək və qan - damar xəstəliklərindən ölənlərin sayında 26,6 faiz artım olub. Bunun əsas səbəbi koronavirusdan sağalandan sonra orqanizmdə yaranan problemlərdir.

2020 – ci ilin may ayından etibarən Türkiyənin İstanbul Universitetinin tibb fakültəsi nəzdində fəaliyyətə başlayan COVID – 19 Xəstələrinə Nəzarət Mərkəzi ötən doqquz ayın hesabatını təqdim edib. Bu müddət ərzində mərkəzdə COVID – 19 keçirən 3 min 300 nəfər qeydiyyata götürülərək nəzarətdə saxlanılıb. Mərkəzin mütəxəssisləri virusun yan təsirləri barədə məlumat veriblər. Bildirilib ki, ümumiyyətlə COVID – 19 keçirən şəxslərdə ən böyük risk damar tutulmasıdır. Bundan əlavə, xəstəlikdən sağalanlarda yaddaş zəifləməsi, səbəbsiz kürək ağrıları, halsızlıq, yorğunluq və ya tez yorulma kimi hallar da müşahidə olunub. Qadınlar arasında yaranan ən böyük problem isə saç tökülməsidir. Bu hal nəzarətdə olan qadınların ümumi sayının 10 faizində müşahidə olunub.




Qeyd edilib ki, pandemiya dövrü ərzində insanların hərəkətsiz qalması, keçirdikləri stres gələcəkdə ürək – damar problemlərinə yol aça bilər. Bu səbəbdən yaxın bir – iki il ərzində virusa yoluxmasından asılı olmayaraq hər kəsin ürək – damar sistemini nəzarətdə saxlaması vacibdir.

Neftçilər Xəstəxanasının həkim – infeksionisti Aişə Kərimova bu problemlə bağlı deyib ki, koronavirus infeksiyası bir neçə orqanı zədələyə bilir. Həmin orqanlara əsasən ağciyər, ürək və böyrəklər aiddir. Lakin əgər alt qatda yatan hər hansı bir narahatlıq varsa, xəstəliklərin artması nəticəsində digər orqanların da zədələnməsi mümkündür: “Yoluxma əsasən ürək – damar sistemi xəstəlikləri olanlarda narahatlıq yaradır ki, bu da insanın COVID – 19 – dan sağalandan sonra da laxtalanma ilə əlaqədar problemlər olduğuna görə damarlarda yaranan laxtalanmaya gətirib çıxarır və bunun nəticəsində insanlar həyatını itirir”.

Həkim qeyd edib ki, risk qrupunda olan koronavirus xəstələri sağalandan sonra da vaxtaşırı olaraq müayinədən keçməlidirlər: ”Bəzən COVID – 19 xəstəliyindən müalicə olunan zaman ikincili bakterial və ya parazitar infeksiyanın qoşulması nəticəsində orqanizmin digər orqanlarına da zərər dəymiş olur və həmin hallar letallığa aparıb çıxarır. Bəzən də elə olur ki, xəstə özünü COVID – 19 infeksiyasından sağalmış sayır, orqanizmdə temperaturun yüksəlməməsini və oksigen saturasiyasının 90 – dan yuxarı olmasını infeksiyadan sağalma kimi qəbul edir və qanın laxtalanmasını nəzərə almır. Halbuki laxtalanma düzəlməyincə həyat üçün təhlükə ola bilər. İstənilən halda koronavirusdan sağalanların ayda bir dəfə də olsa həkim müayinəsindən keçməsi məsləhətdir”. Həkim, həmçinin bildirib ki, virusun sonrakı bir neçə il ərzində insan orqanizmində yarada biləcəyi problemləri isə gələcəkdə yaşanan təcrübələrlə daha dəqiq öyrənmək mümkündür.

Hazırda koronovirusun mutasiyaya uğramış yeni ştammlarından əlavə, daha müxtəlif virusların yayıldığı barədə rəsmi məlumatlar var. Eyni zamanda, bu yeni meydana çıxan virusların daha aqressiv olduğu, beyin toxumalarını zədələdiyi haqqında xəbərlər dolaşmaqdadır. Bunu pandemiyanın üçüncü dalğası adlandıranlar da var. Avropa alimləri üçüncü dalğanı payıza doğru gözləyirlər. Amma rusiyalı mütəxəssislər bunun daha tez olacağını deyirlər. İnfeksionistlərin fikrincə, virusun mutasiyaya uğraması da üçüncü dalğanın bir qədər güclü olacağını təxmin edir. Virusun necə təhlükəli olmasından asılı olmayaraq, yoluxmamaq üçün qoyulan qaydalara, tələblərə əməl etsək, daha ayıq olsaq, yəqin ki, COVID – 19 – dan olduğu kimi, bu virusdan da yaxa qurtara biləcəyik.

***Zərifə BƏŞİRQIZI, “Xalq qəzeti”***